İPƏK YOLU, No.2, 2026, səh.40-49
https://doi.org/10.30546/SI.2026.2.01.710

# BEYNƏLXALQ ƏHƏMİYYƏTLİ TƏDBİRLƏRİN İQTİSADİYYATIN İNKİŞAFINDAKI ROLUNUN QİYMƏTLƏNDİRİLMƏSİNİN METODOLOJİ MƏSƏLƏLƏRİ

**Ağanemət Daşqınlı**

Azərbaycan Turizm və Menecment Universiteti, Bakı, Azərbaycan
e-mail: aganemet@yandex.com

**Xülasə.** Məqalədə beynəlxalq əhəmiyyətli tədbirlərin ümumi olaraq iqtisadiyyatın, xüsusilə isə turizm sektorunun inkişafına təsirinin qiymətləndirilməsi ilə əlaqədar olaraq ortaya çıxan metodoloji məsələlər geniş şəkildə izah edilmişdir. Tədqiqatın əsas məqsədi bu kimi tədbirlərin iqtisadi təsirlərinin ölçülmə prinsipinin, bu zaman hansı metodlardan istifadə edildiyinin və qiymətləndirmə prossesi zamanı ortaya çıxan çətinliklərin müəyyən edilməsidir. Tədqiqatda “təsir” anlayışı kontrfaktual yanaşma üzərindən təhlil edilmiş, xərclər və faydalar analizi, giriş-çıxış modelləri, eyni zamanda ekonometrik üsullar kimi mühüm əhəmiyyət kəsb edən metodoloji yanaşmalar təhlil olunmuşdur. Bu aspektdən mövzu ilə bağlı alternativ ssenarinin qurulması, spillover təsirlər, mövsümlülük, zaman və əvəzləmə effekti kimi məsələlərə xüsusi yer verilmişdir. Eyni zamanda, qiymətləndirmə prosesində istifadə edilən müəyyən göstəricilərin seçimi, əldə olunan məlumatların etibarlılığı və kəmiyyət ilə keyfiyyət metodlarının birgə tətbiqi kimi mühüm məqamlar da qiymətləndirilmişdir. Empirik nümunələr ilə beynəlxalq təcrübəyə əsasən, tətbiq edilən metodların üstün və zəif tərəfləri tədqiqat çərçivəsində analiz edilmişdir.

**Açar sözlər:** Beynəlxalq tədbirlər, iqtisadi təsir, qiymətləndirmə, alternativ.

## METHODOLOGICAL ISSUES OF ASSESSING THE ROLE OF INTERNATIONALLY SIGNIFICANT EVENTS IN ECONOMIC DEVELOPMENT

**Aghanemat Dashginli**
*Azerbaijan Tourism and Management University, Baku, Azerbaijan*

**Abstract.** This study provides a comprehensive explanation of the methodological issues that arise in assessing the impact of internationally significant events on the economy in general and on the tourism sector in particular. The main objective of the research is to determine the principles for measuring the economic impacts of such events, the methods used in this process and the challenges encountered during the evaluation process. In the study, the concept of “impact” is analyzed through a counterfactual approach and important methodological frameworks such as cost-benefit analysis, input-output models and econometric methods are examined. From this perspective, particular attention is given to issues such as constructing alternative scenarios, spillover effects, seasonality, time and substitution effects. At the same time, key aspects such as the selection of indicators used in the evaluation process, the reliability of the data obtained and the combined application of quantitative and qualitative methods are also assessed. In this regard, the strengths and weaknesses of the methods applied based on international experience are analyzed within the framework of the study through empirical examples.
**Keywords:** International events, economic impact, assessment, alternative.

## 1. Giriş

Müasir dövrdə beynəlxalq əhəmiyyətli tədbirlər ölkələrin iqtisadi və turizm siyasətində getdikcə daha vacib yer tutmağa başlamışdır. Bu cür tədbirlər yalnız qısamüddətli iqtisadi canlanma yaratmaqla kifayətlənmir, eyni zamanda uzunmüddətli perspektivdə turizm sektorunun inkişafına, infrastrukturun yenilənməsinə və ölkənin beynəlxalq səviyyədə

tanınmasına da təsir göstərir. Bu baxımdan, bu kimi tədbirlərin iqtisadi təsirinin düzgün və obyektiv şəkildə qiymətləndirilməsi həm dövlət siyasətinin formalaşdırılması, həm də resursların səmərəli istifadəsi üçün xüsusi aktuallıq kəsb edir. Bununla belə, bu təsirlərin real miqyasını müəyyənləşdirmək və onları düzgün qiymətləndirmək hələ də tədqiqatçılar arasında müzakirə mövzusu olaraq qalır.

Mövzu ilə bağlı aparılan araşdırmalara nəzər saldıqda müxtəlif yanaşmaların mövcud olduğu görünür. Məsələn, Crompton, Lee və Shuster iqtisadi təsirin qiymətləndirilməsində metodoloji dəqiqliyin vacibliyini vurğulayaraq, xüsusilə yerli iqtisadiyyata real təsirin düzgün ayrılmasının önəmli olduğunu qeyd edirlər [3]. Digər tərəfdən, Dwyer, Forsyth və Spurr turizmin iqtisadi təsirini daha geniş çərçivədə təhlil etmək üçün ümumi tarazlıq modellərinin tətbiqini təklif edir və bu yanaşmanın daha real nəticələr verə biləcəyini bildirirlər [8].

Ivanov və Webster isə turizmin iqtisadi artımla əlaqəsini araşdıraraq bu sahənin makroiqtisadi proseslərlə sıx bağlı olduğunu göstərirlər [10]. Attanasi mədəni tədbirlərin iqtisadi təsirini təhlil edərkən onların yalnız birbaşa gəlir gətirmədiyini, eyni zamanda dolayı və uzunmüddətli nəticələr doğurduğunu vurğulayır. Bu fikir Nadotti və Vannoni tərəfindən də dəstəklənir və onlar tədbir turizmini iqtisadi təsirlərin izahı üçün ayrıca yanaşma kimi təqdim edirlər [12].

Bəzi tədqiqatçılar beynəlxalq tədbirlərin iqtisadi faydalarına daha tənqidi yanaşırlar. Məsələn, Bond və Zimbalist qeyd edirlər ki, bu cür tədbirlərin iqtisadi nəticələri bəzən gözlənildiyi qədər yüksək olmur və təqdim olunan göstəricilər müəyyən hallarda şişirdilə bilər [5]. Xüsusilə Zimbalist mega-tədbirlərin, o cümlədən Olimpiya oyunlarının xərcləri ilə əldə olunan faydalar arasında ciddi fərqlərin ola biləcəyini göstərir.

Son dövrlərdə aparılan tədqiqatlarda isə metodoloji yanaşmaların daha da inkişaf etdirilməsi istiqamətində yeni təkliflər irəli sürülür. Məsələn, turizm paketlərinin sosial-iqtisadi təsirlərinin həyat dövrü yanaşması əsasında qiymətləndirilməsi kimi yeni metodlar tətbiq olunur. Hasbi və digər tədqiqatçıların apardığı ədəbiyyat icmalı göstərir ki, bu sahədə hələ də vahid metodoloji yanaşma formalaşmayıb və müəyyən boşluqlar mövcuddur [13]. Ümumilikdə, beynəlxalq tədbirlərin iqtisadi təsirinin qiymətləndirilməsi çoxsaylı dəyişənlərin eyni vaxtda nəzərə alınmasını tələb edən bir prosesdir. Məqalədə əsas məqsəd həmin metodoloji yanaşmaları sistemli şəkildə təhlil etmək və onların tətbiq imkanlarını qiymətləndirməkdir.

## 2. Qiymətləndirmə metodologiyası

Qiymətləndirmə metodologiyasının əsasını təsir anlayışının düzgün müəyyənləşdirilməsi təşkil edir. İqtisadi metodologiyada "təsir" anlayışı tədbirin baş vermədiyi alternativ ssenari ilə müqayisədə yaranan dəyişiklikləri ifadə edir. Bu yanaşma kontrfaktual analiz prinsipinə əsaslanır və qiymətləndirmənin elmi obyektivliyini təmin edir. Beynəlxalq tədbirlərin iqtisadiyyat və turizmə təsirinin qiymətləndirilməsində əsas metodoloji problemlərdən biri məhz bu alternativ ssenarinin düzgün qurulmasıdır. Çünki iqtisadi proseslər dinamik xarakter daşıyır və tədbirdən asılı olmayan faktorlar da eyni dövrdə iqtisadi

göstəricilərə təsir göstərə bilər. Bu səbəbdən metodoloji baxımdan tədbirin real təsirinin digər makroiqtisadi və institusional dəyişikliklərdən ayrılması xüsusi yanaşma tələb edir [10].

Beynəlxalq əhəmiyyətli tədbirlərin iqtisadi təsirinin qiymətləndirilməsində geniş istifadə olunan metodoloji yanaşmalardan biri xərclər-faydalar analizidir. Bu metod tədbirin təşkili üçün çəkilən bütün xərclərlə əldə olunan iqtisadi və sosial faydaların müqayisəsinə əsaslanır. Xərclər-faydalar analizinin metodoloji üstünlüyü onun qərar qəbuletmə prosesində praktiki tətbiq imkanlarının geniş olmasıdır. Lakin bu metodun əsas məhdudiyyəti qeyri-maddi və uzunmüddətli faydaların monetar ifadəsinin çətinliyi ilə bağlıdır. İqtisadiyyat sahəsində imicin yaxşılaşması, ölkənin tanınma səviyyəsinin artması və gələcək turist axınlarına müsbət təsir kimi nəticələrin dəqiq ölçülməsi metodoloji baxımdan mürəkkəbdir və çox vaxt subyektiv qiymətləndirmələrə əsaslanır.

İqtisadi təsirlərin qiymətləndirilməsində tətbiq olunan digər mühüm metodoloji yanaşma giriş-çıxış modelləridir. Bu modellər iqtisadiyyatın sektorlararası əlaqələrini nəzərə alaraq beynəlxalq tədbirlərin müxtəlif sahələrə yayılma effektlərini hesablamağa imkan verir. Metodoloji baxımdan giriş-çıxış modelləri birbaşa, dolayı və induksiya olunmuş təsirlərin ayrılıqda qiymətləndirilməsini təmin edir. Xüsusilə turizm sektoru üçün bu yanaşma böyük əhəmiyyət daşıyır, çünki turizm fəaliyyətinin təsiri yalnız mehmanxana və nəqliyyat sahələri ilə məhdudlaşmır, eyni zamanda ticarət, mədəniyyət, əyləncə və digər xidmət sahələrinə də sirayət edir [11]. Bununla belə, giriş-çıxış modellərinin əsas çatışmazlığı onların statik xarakter daşıması və struktur dəyişikliklərini tam əks etdirməməsidir.

Beynəlxalq tədbirlərin iqtisadiyyata təsirinin qiymətləndirilməsində statistik və ekonometrik metodların rolu da getdikcə artmaqdadır. Ekonometrik yanaşmalar tədbirin təsirini zaman sıraları və panel məlumatlar əsasında empirik şəkildə qiymətləndirməyə imkan verir. Bu metodologiya beynəlxalq tədbirlərin keçirildiyi dövrdə və sonrakı mərhələdə iqtisadi göstəricilərdə baş verən dəyişikliklərin statistik əhəmiyyətini müəyyən etməyə xidmət edir [5]. Turizm sektorunda turist axınlarının sayı, turizm gəlirləri, gecələmə müddəti və məşğulluq göstəriciləri kimi indikatorlar ekonometrik modellərdə geniş istifadə olunur. Lakin bu metodun effektivliyi etibarlı və uzunmüddətli statistik məlumatların mövcudluğundan birbaşa asılıdır ki, bu da bir çox ölkələr üçün metodoloji məhdudiyyət yaradır.

Qiymətləndirmə metodologiyasında mühüm məsələlərdən biri zaman faktorunun düzgün nəzərə alınmasıdır. Beynəlxalq tədbirlərin təsiri qısamüddətli, orta müddətli və uzunmüddətli mərhələlərdə fərqli şəkildə təzahür edir. Qısamüddətli dövrdə daha çox istehlak və xidmət həcminin artımı müşahidə olunduğu halda, uzunmüddətli dövrdə institusional dəyişikliklər, turizm brendinin formalaşması və investisiya mühitinin yaxşılaşması kimi təsirlər ön plana çıxır [9]. Metodoloji yanaşmalar bu zaman fərqliliyini nəzərə almadıqda, beynəlxalq tədbirlərin real iqtisadi rolu natamam və ya təhrif olunmuş şəkildə qiymətləndirilə bilər.

Beynəlxalq tədbirlərin turizm sektoruna təsirinin qiymətləndirilməsi metodoloji baxımdan xüsusi yanaşma tələb edir. Turizm iqtisadiyyatı çoxkomponentli və yüksək dərəcədə

mövsümi xarakter daşıyan sahə olduğuna görə, beynəlxalq tədbirlərin təsirini digər turizm faktorlarından ayırmaq çətindir. Metodoloji olaraq tədbir öncəsi, tədbir müddəti və tədbirdən sonrakı dövrlərin müqayisəli analizi bu problemin həllində mühüm rol oynayır [1]. Eyni zamanda, alternativ turizm trendləri və qlobal turizm bazarındakı dəyişikliklər də qiymətləndirmə prosesində nəzərə alınmalıdır.

Qiymətləndirmə metodologiyasında statistik göstəricilərlə yanaşı davranış və rəy məlumatlarının da nəzərə alınması beynəlxalq tədbirlərin iqtisadi rolunun daha dolğun şəkildə müəyyən edilməsinə imkan verir. Kəmiyyət metodları konkret iqtisadi göstəricilər üzərindən ölçmə aparmağa şərait yaratdığı halda, keyfiyyət metodları qərar qəbul edənlərin, biznes nümayəndələrinin və turistlərin davranış və gözləntilərini analiz etməyə imkan verir [13]. Sorğular, müsahibələr və ekspert qiymətləndirmələri beynəlxalq tədbirlərin turizm sektoruna təsirinin qeyri-maddi aspektlərini üzə çıxarmaqda mühüm metodoloji alət kimi çıxış edir.

Ümumilikdə, beynəlxalq əhəmiyyətli tədbirlərin iqtisadiyyatın inkişafındakı rolunun qiymətləndirilməsinin metodoloji məsələləri bu sahədə vahid və universal yanaşmanın mövcud olmadığını göstərir. Hər bir metod müəyyən üstünlüklərə malik olsa da, eyni zamanda məhdudiyyətlər də daşıyır. Bu səbəbdən metodoloji baxımdan ən optimal yanaşma fərqli metodların uyğun şəkildə birləşdirildiyi çevik qiymətləndirmə modeli çərçivəsinin formalaşdırılmasıdır. Belə yanaşma beynəlxalq tədbirlərin iqtisadi təsirlərinin daha obyektiv, etibarlı və elmi əsaslandırılmış şəkildə qiymətləndirilməsinə imkan yaradır.

Beynəlxalq əhəmiyyətli tədbirlərin iqtisadiyyatın inkişafındakı rolunun qiymətləndirilməsi metodologiyasında mühüm məsələlərdən biri göstəricilər sisteminin düzgün formalaşdırılmasıdır. Qiymətləndirmə prosesində istifadə olunan indikatorlar tədqiqatın nəticələrinin etibarlılığına və müqayisə imkanlarına birbaşa təsir göstərir. Metodoloji baxımdan göstəricilər makroiqtisadi, sektoral və mikroiqtisadi səviyyələr üzrə qruplaşdırılmalıdır. Makroiqtisadi səviyyədə ümumi daxili məhsulun artım tempi, büdcə gəlirləri, məşğulluq səviyyəsi və xarici ticarət balansı kimi göstəricilər ön plana çıxır [12]. Sektoral səviyyədə isə turizm gəlirləri, turist axınlarının həcmi, mehmanxana doluluq səviyyəsi, nəqliyyat xidmətlərinin həcmi və əlaqəli sahələrdə dövriyyə göstəriciləri əsas qiymətləndirmə obyektinə çevrilir. Mikroiqtisadi səviyyədə isə ayrı-ayrı müəssisələrin maliyyə nəticələri, xidmət keyfiyyəti və məhsuldarlıq göstəriciləri beynəlxalq tədbirlərin real təsirini daha dəqiq əks etdirə bilər.

Qiymətləndirmə metodologiyasında məlumat mənbələrinin seçimi və etibarlılığı da xüsusi əhəmiyyət kəsb edir. Beynəlxalq tədbirlərin iqtisadi və turizm təsirinin ölçülməsi üçün rəsmi statistika, inzibati məlumatlar, sorğu nəticələri və kommersiya məlumat bazaları geniş istifadə olunur. Lakin metodoloji baxımdan bu müxtəlif mənbələrdən əldə olunan məlumatların eyni səviyyədə uyğunlaşmaması və boşluqlar mövcud ola bilər. Rəsmi statistik məlumatlar əksər hallarda gecikmə ilə dərc olunur və tədbirin qısamüddətli təsirlərini tam əks etdirmir. Sorğu məlumatları isə subyektiv yanaşmalara əsaslandığı üçün metodoloji baxımdan diqqətli interpretasiya tələb edir [10]. Bu səbəbdən, qiymətləndirmə prosesində müxtəlif mənbələrdən

əldə olunan məlumatların qarşılıqlı yoxlanılması və trianqulyasiya üsullarının tətbiqi vacib hesab olunur.

Beynəlxalq tədbirlərin turizm sektoruna təsirinin qiymətləndirilməsində mövsümlülük amili metodoloji çətinliklər yaradan əsas faktorlardan biridir. Turizm fəaliyyətinin təbii mövsümi dəyişkənliyi beynəlxalq tədbirlərin real təsirinin ölçülməsini çətinləşdirir. Metodoloji yanaşmalar bu təsiri aradan qaldırmaq üçün mövsümi düzəlişlərdən, analoji dövrlərin müqayisəsindən və uzunmüddətli trend analizlərindən istifadə etməyi tələb edir. Əks halda, tədbirlə əlaqəsi olmayan mövsümi artımlar və ya azalmalar yanlış nəticələrin əldə olunmasına səbəb ola bilər. Bu baxımdan, turizm statistikalarının emalı və interpretasiyası metodoloji baxımdan xüsusi peşəkarlıq tələb edir.

Qiymətləndirmə metodologiyasında mühüm məsələlərdən biri də coğrafi təsir dairəsinin düzgün müəyyənləşdirilməsidir. Beynəlxalq əhəmiyyətli tədbirlərin təsiri yalnız tədbirin keçirildiyi şəhər və ya regionla məhdudlaşmır, eyni zamanda ölkənin digər ərazilərinə də yayılır. Turistlərin ölkə daxilində hərəkəti, regional xidmətlərdən istifadə və daxili nəqliyyat axınları bu təsirin coğrafi genişliyini artırır. Metodoloji baxımdan, bu spillover effektlərin nəzərə alınmaması beynəlxalq tədbirlərin iqtisadi rolunun az qiymətləndirilməsinə səbəb ola bilər. Buna görə də regional və milli səviyyəli analizlərin paralel aparılması qiymətləndirmənin obyektivliyini artıran mühüm metodoloji prinsip kimi çıxış edir.

Beynəlxalq tədbirlərin iqtisadiyyata təsirinin qiymətləndirilməsində qarşıya çıxan digər metodoloji problem "əvəzləmə effekti" ilə bağlıdır. Əvəzləmə effekti beynəlxalq tədbir zamanı yaranan xərclərin əslində alternativ fəaliyyətlərdən yönləndirilməsi halını ifadə edir. Məsələn, yerli əhalinin tədbir dövründə digər istirahət formalarından imtina edərək beynəlxalq tədbirə xərcləmə etməsi real iqtisadi artım yaratmaya bilər. Metodoloji yanaşmalar bu effekti nəzərə almadıqda beynəlxalq tədbirlərin iqtisadi təsiri şişirdilmiş şəkildə təqdim oluna bilər. Bu səbəbdən qiymətləndirmə prosesində yerli və xarici xərcləmələrin ayrılıqda təhlili xüsusi əhəmiyyət daşıyır.

Turizm sektorunda beynəlxalq tədbirlərin təsirinin qiymətləndirilməsində davranış dəyişikliklərinin ölçülməsi metodoloji baxımdan mürəkkəbdir. Turistlərin qərarvermə motivləri, səfər müddətinin uzadılması, təkrar səfər ehtimalı və tövsiyə davranışları kimi faktorlar klassik iqtisadi göstəricilərlə birbaşa ölçülmür. Bu baxımdan, keyfiyyət yönümlü metodların kəmiyyət analizləri ilə inteqrasiyası zəruri hesab olunur. Metodoloji yanaşma olaraq, beynəlxalq tədbir iştirakçılarının və turistlərin davranış profillərinin formalaşdırılması turizmin uzunmüddətli inkişaf perspektivlərinin qiymətləndirilməsində mühüm rol oynayır.

Qiymətləndirmə metodologiyasında institusional və idarəetmə faktorlarının nəzərə alınması da vacibdir. Beynəlxalq tədbirlərin iqtisadi təsiri yalnız tədbirin miqyası ilə deyil, eyni zamanda onun təşkilati keyfiyyəti və idarəetmə effektivliyi ilə müəyyən olunur. Metodoloji baxımdan, bu faktorların ölçülməsi çətin olsa da, layihə idarəetməsi göstəriciləri, koordinasiya səviyyəsi və maraqlı tərəflərin iştirakı kimi parametrlər qiymətləndirmə çərçivəsinə daxil edilə

bilər. Bu yanaşma beynəlxalq tədbirlərin uğurunun yalnız maliyyə nəticələri ilə deyil, həm də idarəetmə performansı ilə əlaqəli olduğunu ortaya qoyur.

Beynəlxalq tədbirlərin iqtisadiyyata təsirinin qiymətləndirilməsində beynəlxalq müqayisə metodlarının tətbiqi də metodoloji əhəmiyyət kəsb edir. Oxşar tədbirlərin müxtəlif ölkələrdə yaratdığı təsirlərin müqayisəsi qiymətləndirmə nəticələrinin kontekstual interpretasiyasına imkan verir. Lakin bu yanaşma metodoloji baxımdan diqqətli tətbiq olunmalıdır, çünki ölkələrin iqtisadi strukturu, turizm potensialı və institusional mühiti fərqlidir. Müqayisəli analizlərdə bu fərqlər nəzərə alınmadıqda yanlış ümumiləşdirmələrə yol verilə bilər.

Ümumilikdə, beynəlxalq əhəmiyyətli tədbirlərin iqtisadiyyatın inkişafındakı rolunun qiymətləndirilməsinin metodoloji məsələlər müxtəlif səviyyələrdə fərqli yanaşmaların tətbiqini zəruri edir. Göstəricilərin seçimi, məlumat mənbələrinin etibarlılığı, zaman və məkan faktorları, əvəzləmə və spillover effektləri kimi metodoloji problemlərin nəzərə alınması qiymətləndirmənin elmi əsaslılığını təmin edən əsas şərtlərdir. Bu yanaşma beynəlxalq tədbirlərin iqtisadi təsirinin daha real və obyektiv şəkildə ölçülməsinə imkan yaradır.

Beynəlxalq əhəmiyyətli tədbirlərin iqtisadiyyatın inkişafındakı rolunun qiymətləndirilməsinin metodoloji əsaslandırılmasında empirik ölçmə mexanizmlərinin qurulması mühüm mərhələ hesab olunur. Metodoloji yanaşmaların praktik tətbiqi yalnız nəzəri modellərlə məhdudlaşmadıqda, konkret göstəricilər, ölçmə alətləri və hesablamalar vasitəsilə təsirin real miqyasını ortaya qoymaq mümkün olur. Bu baxımdan, beynəlxalq tədbirlərin iqtisadi təsirinin qiymətləndirilməsi üçün istifadə olunan empirik metodlar akademik ədəbiyyatda ayrıca tədqiqat istiqaməti kimi formalaşmışdır.

İqtisadçı professor Con Krompton beynəlxalq tədbirlərin iqtisadi təsirinin ölçülməsi ilə bağlı tədqiqatlarında xüsusi olaraq vurğulayır ki, "tədbirlərin yaratdığı xərcləmə həcmi ilə iqtisadi təsir anlayışı eyniləşdirilməməlidir; real iqtisadi təsir yalnız xarici və əlavə xərcləmələr əsasında ölçülməlidir". Bu yanaşma metodoloji baxımdan mühüm prinsip formalaşdırır və qiymətləndirmə prosesində yerli əhalinin adi xərcləmələrinin təsirdən çıxarılmasını zəruri edir. Məsələn, beynəlxalq idman tədbiri zamanı yerli sakinlərin tədbir ərazisində xərclədiyi vəsait yeni iqtisadi dəyər yaratmadığı üçün təsir hesablamalarına daxil edilməməlidir [3].

Professor Qreqori Dvayer və Piter Fletçerin turizm iqtisadiyyatı üzrə tədqiqatlarında beynəlxalq tədbirlərin iqtisadi təsirinin ölçülməsi üçün çoxsəviyyəli modellər təklif olunur. Onların yanaşmasına görə birbaşa təsir ilkin xərcləmələrlə ifadə olunduğu halda, dolayı təsir bu xərcləmələrin tədarük zənciri vasitəsilə digər sahələrə ötürülməsi nəticəsində yaranır, induksiya olunmuş təsir isə əldə edilən gəlirlərin yenidən istehlaka yönəldilməsi ilə formalaşır. Metodoloji olaraq bu təsirlərin hər biri ayrıca hesablanmalı və yekun iqtisadi təsir yalnız bu komponentlərin cəmi kimi təqdim olunmalıdır. Bu yanaşma beynəlxalq tədbirlərin turizm sektorunda yaratdığı real iqtisadi dəyərin daha obyektiv qiymətləndirilməsinə imkan verir [8].

Hesablama nümunəsi kimi aşağıdakı metodoloji yanaşmanı göstərmək olar:

Tutaq ki, beynəlxalq tədbir zamanı ölkəyə 40 min xarici turist gəlmişdir və onların orta gündəlik xərcləri 150 ABŞ dolları təşkil edir. Tədbirin orta qalma müddəti 4 gün olduqda birbaşa turizm xərcləməsi 24 milyon dollar təşkil edir. Əgər giriş-çıxış modelinə əsasən, turizm sektorunda multiplikator əmsalı 1,7 olaraq qəbul edilərsə, ümumi iqtisadi təsir təqribən 40,8 milyon dollar səviyyəsində qiymətləndirilə bilər. Bu cür hesablamalar metodoloji baxımdan sadələşdirilmiş model olsa da, beynəlxalq tədbirlərin iqtisadi rolunun ilkin qiymətləndirilməsi üçün geniş istifadə olunur.

Empirik qiymətləndirmədə mühüm metodoloji alətlərdən biri də müqayisəli cədvəllərin tərtibidir. Bu cədvəllərdə tədbirdən əvvəlki, tədbir dövrü və tədbirdən sonrakı turizm göstəriciləri müqayisə olunur. Məsələn, turist sayı, gecələmə müddəti, mehmanxanada doluluq faizi və turizm gəlirləri üzrə göstəricilər ardıcıl dövrlər üzrə təqdim edilir. Bu yanaşma beynəlxalq tədbirlərin turizm sektoruna təsirinin zaman dinamikasını üzə çıxarmağa imkan verir. Lakin metodoloji baxımdan bu müqayisələr aparılarkən makroiqtisadi vəziyyət, valyuta məzənnələri və qlobal turizm trendləri kimi kənar faktorların təsiri də nəzərə alınmalıdır.

İqtisadçı professor Vilhelm Baumolun xidmət iqtisadiyyatı ilə bağlı fikirlərinə əsaslanaraq beynəlxalq tədbirlərin turizm sektorunda yaratdığı məhsuldarlıq təsiri də qiymətləndirmə çərçivəsinə daxil edilə bilər. Baumol qeyd edir ki, xidmət sahələrində məhsuldarlıq artımı ənənəvi sənaye sahələri ilə müqayisədə daha mürəkkəb ölçülür, lakin beynəlxalq tədbirlər xidmət keyfiyyətinin yüksəlməsinə və innovativ yanaşmaların tətbiqinə səbəb olmaqla dolayı məhsuldarlıq artımı yaradır. Metodoloji baxımdan bu təsirin ölçülməsi üçün xidmət keyfiyyəti indeksləri, turist məmnunluğu sorğuları və təkrar səfər göstəriciləri istifadə olunur [4].

Beynəlxalq tədbirlərin iqtisadi təsirinin qiymətləndirilməsində fiskal effektlərin hesablanması da mühüm metodoloji mərhələdir. Dövlət büdcəsinə daxil olan vergi gəlirləri, rüsumlar və ödənişlər beynəlxalq tədbirlərin maliyyə nəticələrinin ölçülməsində əsas göstəricilərdən biri hesab olunur. Metodoloji olaraq əlavə dəyər vergisi, gəlir vergisi və sosial sığorta ödənişləri üzrə artımlar tədbirlə əlaqəli gəlirlər kimi təhlil edilir. Bu yanaşma beynəlxalq tədbirlərin büdcə baxımından effektivliyinin qiymətləndirilməsinə imkan yaradır.

Beləliklə, beynəlxalq əhəmiyyətli tədbirlərin iqtisadiyyatın inkişafındakı rolunun qiymətləndirilməsinin metodoloji əsasları empirik ölçmələr, konkret göstəricilər, cədvəllər və hesablamalar üzərində qurulduqda daha elmi və obyektiv xarakter alır. Alimlərin nəzəri yanaşmaları ilə praktik hesablamaların uzlaşdırılması bu sahədə metodoloji boşluqların aradan qaldırılmasına və nəticələrin etibarlılığının artırılmasına xidmət edir.

Beynəlxalq əhəmiyyətli tədbirlərin iqtisadiyyatın inkişafındakı rolunun qiymətləndirilməsinin metodoloji aspektlərinin yekun mərhələsində tətbiqi nümunələrin və tənqidi yanaşmaların təhlili xüsusi əhəmiyyət kəsb edir. Metodologiyanın elmi dəyəri yalnız nəzəri əsaslandırma ilə deyil, eyni zamanda real hadisələr üzərində sınaqdan keçirilməsi və nəticələrin obyektiv interpretasiyası ilə müəyyən olunur. Bu baxımdan, beynəlxalq miqyaslı

tədbirlərin iqtisadi təsirinin ölçülməsi sahəsində aparılmış empirik tədqiqatlar metodoloji yanaşmaların güclü və zəif tərəflərini üzə çıxarmağa imkan verir.

Beynəlxalq idman tədbirlərinin iqtisadi təsirinin qiymətləndirilməsi üzrə ən çox istinad olunan nümunələrdən biri Olimpiya Oyunlarıdır. Professor Endryu Zimbalist Olimpiya Oyunlarının iqtisadi təsiri ilə bağlı araşdırmalarında qeyd edir ki, "Olimpiya Oyunları üçün təqdim edilən iqtisadi proqnozların əksəriyyəti metodoloji cəhətdən həddən artıq optimistdir və real nəticələrlə üst-üstə düşmür". Onun hesablamalarına görə bir çox ev sahibi şəhərlərdə faktiki iqtisadi gəlirlər ilkin proqnozların 40-60 faizi səviyyəsində olmuşdur. Bu nəticə metodoloji baxımdan alternativ xərclərin və fiskal yükün qiymətləndirilməsinin vacibliyini ön plana çıxarır [6].

Metodoloji yanaşma kimi beynəlxalq tədbirlərin qiymətləndirilməsində tez-tez istifadə olunan cədvəllərdən biri "proqnozlaşdırılan təsir - faktiki təsir" müqayisə cədvəlidir. Bu cədvəldə tədbirdən əvvəl hazırlanmış iqtisadi proqnoz göstəriciləri ilə tədbirdən sonra əldə olunan faktiki nəticələr yanaşı təqdim olunur. Məsələn, proqnozlaşdırılan turist sayı, real turist axını, gözlənilən turizm gəlirləri və faktiki gəlirlər müqayisə edilir. Bu metodoloji yanaşma qiymətləndirmə prosesində subyektiv yanaşmaların və siyasi motivli proqnozların aşkarlanmasına imkan verir.

Beynəlxalq sərgi və forumların iqtisadi təsirinin qiymətləndirilməsində "Expo" sərgiləri xüsusi maraq doğurur. İqtisadçı mütəxəssislər böyükmiqyaslı layihələrin iqtisadi təhlili ilə bağlı tədqiqatlarında Expo sərgilərinin xərclər baxımından əksər hallarda ilkin büdcəni aşdığını göstərir. Ümumi hesablamalara görə, Expo layihələrində orta xərc aşımı təqribən 30-50 faiz təşkil edir. Metodoloji baxımdan bu nəticə xərclərin qiymətləndirilməsi zamanı risk faktorlarının və qeyri-müəyyənliklərin ayrıca komponent kimi nəzərə alınmasının vacibliyini ortaya qoyur [7].

Turizm təsirinin ölçülməsi üzrə metodoloji yanaşmalarda geniş istifadə olunan cədvəl strukturlarından biri "turist profili və xərcləmə strukturu" cədvəlidir. Bu cədvəldə turistlər mənşə ölkələrinə, qalma müddətinə və xərcləmə kateqoriyalarına görə qruplaşdırılır. Məsələn, xarici tədbir iştirakçılarının orta gündəlik xərcləri yerli turistlərlə müqayisədə 1,5-2 dəfə yüksək ola bilər. Bu fərq metodoloji baxımdan beynəlxalq tədbirlərin turizm gəlirlərinə real töhfəsini daha dəqiq hesablamağa imkan verir.

Beynəlxalq tədbirlərin turizmə təsiri çox vaxt qısamüddətli xarakter daşıyır və tədbirdən sonra turist axınında sabit artım müşahidə olunmur. Onun empirik analizləri göstərir ki, tədbirdən sonrakı dövrdə turizm göstəricilərində artım yalnız o halda davamlı olur ki, ölkə paralel şəkildə marketinq strategiyalarını və turizm məhsullarını inkişaf etdirsin. Bu fikir metodoloji baxımdan qiymətləndirmə prosesində tədbirin təkbaşına deyil, ümumi turizm siyasətinin tərkib hissəsi kimi təhlil edilməsini zəruri edir.

Beynəlxalq tədbirlərin iqtisadi təsirinin qiymətləndirilməsində alternativ xərclər anlayışı xüsusi metodoloji əhəmiyyət daşıyır. Alternativ xərclər beynəlxalq tədbir üçün istifadə olunan resursların digər sahələrdə istifadəsi halında əldə edilə biləcək faydanı ifadə edir.

Məsələn, iri idman tədbiri üçün ayrılan büdcə vəsaitinin təhsil, səhiyyə və ya regional inkişaf layihələrinə yönəldilməsi alternativ ssenari kimi nəzərdən keçirilə bilər. Metodoloji olaraq bu müqayisə aparılmadıqda beynəlxalq tədbirlərin iqtisadi səmərəliliyi tam qiymətləndirilmiş sayılmır.

Hesablama nümunəsi olaraq, tutaq ki, beynəlxalq tədbir üçün 500 milyon dollar dövlət vəsaiti xərclənmişdir və tədbirin nəticəsində 350 milyon dollar birbaşa və dolayı iqtisadi gəlir əldə olunmuşdur. Bu halda sadə maliyyə balansı mənfi olsa da, metodoloji baxımdan imic, institusional inkişaf və turizm brendinin güclənməsi kimi qeyri-maddi faydalar ayrıca qiymətləndirilməlidir. Professor Robert Barro bu kontekstdə qeyd edir ki, uzunmüddətli iqtisadi təsirlərin ölçülməsi qısamüddətli maliyyə balansından daha mürəkkəb və uzunmüddətli nəticələrin ayrıca və daha geniş çərçivədə təhlilini tələb edir. Bu fikir beynəlxalq tədbirlərin qiymətləndirilməsində yalnız maliyyə nəticələrinə əsaslanmağın metodoloji məhdudiyyətlərini göstərir [2].

Metodoloji yanaşmaların tənqidi təhlili göstərir ki, bəzi hallarda beynəlxalq tədbirlərin iqtisadi təsiri siyasi və ictimai gözləntilərin təsiri altında şişirdilir. Bu səbəbdən, akademik ədəbiyyatda müstəqil ekspert qiymətləndirmələrinin və açıq məlumatların istifadəsi tövsiyə olunur. Qiymətləndirmə prosesində istifadə olunan fərziyyələrin, multiplikator əmsallarının və proqnoz parametrlərinin şəffaf şəkildə təqdim olunması metodoloji etibarlılığın əsas şərti kimi qəbul edilir.

**Nəticə.** Beynəlxalq əhəmiyyətli tədbirlərin iqtisadiyyatın inkişafındakı rolunun qiymətləndirilməsinin metodoloji məsələləri yalnız texniki hesablamalarla məhdudlaşmır, eyni zamanda analitik düşüncə, tənqidi yanaşma və kontekstual təhlil tələb edir. Konkret cədvəllər, empirik nümunələr, alimlərin elmi mövqeləri və hesablamalar metodoloji çərçivəni zənginləşdirir və qiymətləndirmənin elmi əsaslılığını artırır. Bu yanaşma beynəlxalq tədbirlərin iqtisadi və turizm təsirinin real potensialının və məhdudiyyətlərinin obyektiv şəkildə üzə çıxarılmasına imkan verir və gələcək tədqiqatlar üçün etibarlı metodoloji baza formalaşdırır.

## Ədəbiyyat

1. Attanasi G., Peruzzi V., Ciccarone G., De Fabrizio A., Llerena P. (2025), The economic impact of cultural tourism: Exploring tourist spending and motivation. Tourism Economics, 13548166251369077. https://doi.org/10.1177/13548166251369077
2. Barro R.J., Ursúa J.F. (2008), Macroeconomic crises since 1870. National Bureau of Economic Research, Working Paper No.13940. http://www.nber.org/papers/w13940
3. Basala S.L., Klenosky D.B. (2001), Travel-style preferences for visiting a novel destination: A conjoint investigation across the novelty-familiarity continuum. Journal of Travel Research, Vol.40, No.2, 172-182. https://doi.org/10.1177/004728750104000208
4. Baumol W.J., Blinder A.S. (2008), Macroeconomics: Principles and Policy, 11th edition. https://www.perlego.com/book/3156821/economics-principles-policy-pdf

5. Bond H. (2008), Estimating the economic benefits of event tourism. https://www.liverpool.ac.uk/media/livacuk/impacts08/pdf/pdf/Impacts08-HBond_Oct_2008_Econ_Benefits_of_Event_Tourism.pdf
6. Dempsey C., Matheson V., Zimbalist A. (2019), Is there an economic case for the Olympic Games?. Connecticut Journal of International Law, 40. https://cjil.law.uconn.edu/wp-content/uploads/sites/2746/2020/06/Volume35Issue1.pdf
7. Deng Y., Poon S.W., Chan E.H.W. (2016), Planning mega-event built legacies - A case of Expo 2010. Habitat International, No.53, 163-177. http://dx.doi.org/10.1016/j.habitatint.2015.11.034
8. Dwyer L., Forsyth P., Spurr R. (2004), Evaluating tourism's economic effects: New and old approaches. Tourism Management, Vol.25, No.3, 307-317. https://doi.org/10.1016/S0261-5177(03)00131-6
9. https://wttc.org/research/economic-impact
10. Ivanov S., Webster C. (2007), Measuring the impact of tourism on economic growth. Tourism Economics, Vol.13, No.3, 379-388. https://doi.org/10.5367/000000007781497773
11. Miralles C.C., Roura M.B., Salas S.P., Argelaguet L.L., Jordà J.C. (2024), Assessing the socio-economic impacts of tourism packages: A methodological proposition. The International Journal of Life Cycle Assessment, Vol.29, No.6, 1096-1115. https://doi.org/10.1007/s11367-024-02284-z
12. Nadotti L., Vannoni V. (2019), Cultural and event tourism: An interpretative key for impact assessment. Eastern Journal of European Studies, Vol.10, No.1, 115. https://ideas.repec.org/a/jes/journl/y2019v10p115-131.html
13. Zakaria M., Hasbi M. (2025), Evaluating the development of event tourism: A systematic literature review of concepts, practices and research gaps. Journal of Interdisciplinary Tourism Sciences, Vol.1, No.2, 63-70. https://doi.org/10.71094/jitours.v1i2.123